**Tahir Musayev**

# *Qayıtmayan adam…*

## *Vistula çayı*

QANUN NƏŞRİYYATI

# Kimliyini axtaran qız

Polşa. Varşava şəhəri. Mərkəzi küçələrdən biri. Azərbaycan səfirliyinə yaxın ərazidə yerləşən Hilton hotelinin təqribi yüz on nəfərlik konfrans zalı. Bu gün burada II Dünya müharibəsinə həsr olunmuş "İtkinlər – səssiz qalanlar" mövzusunda konfrans keçirilir. U şəkilli düzülmüş masalar ətrafında oturan insanlar eyni nöqtəyə baxırdı – sanki hamı eyni yaddaşın içinə düşmüşdü. Hamı mərkəzi görmə istiqamətindədir.

Tam səssizlikdir. Zalda hökm sürən dərin sükut deyilənlərdən daha çox danışırdı.

Payızın gəlişi Varşava küçələrinə səpələnmiş sarımtıl gümüşü yarpaqların sayını bir qədər də çoxaltmışdı. Palıd ağacının yerə tökülən böyük, sərt yarpaqları sanki ağacətrafı və gəzinti boyu sahələrin daha çox hissəsini tuturdu. Çinar ağacının beşbarmaq və nazik quruluşlu sarımtıl yarpaqları, xüsusən ağcaqayın ağacının qırmızı, narıncı və sarı tonlara boyanmış yarpaqları ilə birləşərək küçəni daha gözəl və cazibədar göstərirdi. Bu, bəlkə də, payızın Varşava küçələrinə hədiyyə etdiyi ən qiymətli payız mənzərəsi idi.

Hotelin konfrans keçirilən zalında tam sakitlik hiss olunur. Pəncərədən içəri süzülən zəif gün işığı toz dənəciklərini havada yavaşca rəqs etdirir. Zalda əyləşənlərin

əksəriyyəti yaşlı insanlardır – tarixçilər, müharibə veteranlarının övladları, axtarış qruplarının üzvləri və s. Konfransın adı hər kəsin sinəsindəki döş nişanında yazılıb.

Səhnəyə doğru addımlayan orta yaşlı qadın zalda fərqli baxışlarla qarşılanır. O nə professor görkəmlidir, nə otel işçisi, nə də arxivçi. Sadə geyimdə, bir azca əsəbi baxışı və əlində tutduğu köhnə kitabla elə bil illərin sükutunu gətirirdi zala. Danışmaq istəyirdi. Kitabın köhnəlmiş vərəqləri arasından sanki bir ömür boylanırdı. Kürsüyə çatıb dayandı, üzünü zalda oturanlara tutdu:

– Mən – Milena Novak, – deyə yavaş, amma nazik, təsiredici səslə danışmağa başladı: – Mən tarixçi deyiləm. Amma tarixə qarışmış bir adamı axtarıram. Bu kitabı ona görə yazdım ki, bəlkə, haradasa məni eşidən oldu, – deyərək əlində tutduğu köhnə üzlü kitabı yuxarı qaldırdı və diqqəti cəlb etməyə çalışdı.

Belə mövzulu konfranslarda zal, elə bil doymuşdu bu sözlərdən; – kiminsə haradasa axtarıldığını, göz yaşlarında donub qalan ümidlərin səssiz divarda əks-sədasını çox eşitmişdi. Zalda oturanlar yorğunluq içində idi. Çox gəlib-getmişdilər belə yerlərə. Bu yorğunluq bu günün yorğunluğu deyildi. İllərin, amansız müharibənin yorğunluğu idi. Yorulsalar da, ümidlə gözləyən insanlar az deyildi. Müharibənin yaratdığı acı həqiqətlərdən bezənlər də çox idi, oturub hələ də gözləyənlər də.

Zalda tam səssizlik hökm sürür. Qadın kitabı açır. Ötəri olsa da, zala nəzər salır və günəşin pəncərədən düşdüyü işıq tərəfdən kitabın adı görünür: “Kimliyini

axtaran qız”. Bir neçə saniyə heç nə oxumadan kitaba baxır. Sanki içindəki xatirələri oyatmağa cəhd edir və sonra səssizliyi sındırır:

– Anam deyirdi ki, o adam göydən düşmüş kimi gəldi. Ağır hərəkətləri ilə çayın içindən gizlənə-gizlənə irəliləyirdi. Elə bil kimdənsə qaçırdı, cəld olmaq istəsə də, bacarmırdı. Uzaqdan halsız görünürdü, sanki taqəti tükənmişdi. Kömək istəmirdi, səssiz gəlirdi, ya da dili bilmirdi. Almanlar müharibəni uduzmuşdu, əsgərlər kənddən çıxmaq üzrə idi. Mən çaya gətirdiyim paltarı yuyub qurtarmışdım. Qayıtmağa hazırlaşırdım. Durduğum yerdən onun çayın iç qırağı ilə gəlişini təsadüfən gördüm. Bilirdim ki, düşmən deyil, bizimkidir. O vaxtlar, müharibənin sonları almanlar tələsik kəndi tərk edirdi.

Birdən, gözləmədiyim halda haradansa çıxan bir sərxoş alman zabiti üstümə atıldı, məni yerə yıxmağa çalışırdı, fikri başqa idi. Heç cür müqavimət göstərə bilmirdim, əl-qolumu tutmağa çalışırdı. Zorakılığa təslim olmaq fikrim yox idi. O isə alman dilində ardı kəsilmədən söyürdü. Əynimdəki paltar cırıq-cırıq olmuşdu. Yəqin ki, o, zorakılıqdan sonra məni də öldürüb çaya atacaqdı. Birdən yanımızda kiminsə peyda olduğunu hiss etdim. Elə bil göydən düşdü. Əlində tutduğu iri daş parçasını alman zabitinin başına ilişdirdi və təkrar-təkrar vurmağa başladı. Onun başı qan içində idi. Ağır xəsarət aldı. Zabit imkan tapıb gələn adama atəş açdı və yaraladı, qolundan dəymişdi. İki güllə atdı. Amma özü də

birdəfəlik üzü üstə yerə düşdü, bir anlıq çabaladı və lam qaldı. Adam tələsik alman zabitinin vəziyyətini yoxladı və tam öldüyünü hiss edərək silahını götürdü. Bir az gözlədi, onu itələyib yanımızdan sakit axan Vistula çayına atdı. Çay suyunun çoxluğu alman zabitinin meyitini dərinliklərə çəkərək aşağıya doğru batırıb gözdən itirdi. Mən yerimdə donub qalmışdım və mənə elə gəldi ki, o adam da alman zabitindən yanıqlı idi.

Milena sözünə davam edirdi:

– Anam deyirdi ki, bu adamı geyimindən tanıdım. Əsir paltarında idi. Bu, bir az əvvəl təsadüfən gördüyüm və çayın iç qırağı ilə gizlənə-gizlənə gələn adama oxşayırdı. Hadisədən sonra gələn adam çayın qırağına düşüb qana bulaşmış üst-başını, üz-gözünü birtəhər təmizləməyə çalışdı. Amma çox da bacarmırdı, qolundan yaralı idi. Mən də kömək etdim, halsız idi. Paltarımın cırılmış hissəsi ilə yarasını sarımağa çalışdım. Qanaxması deyəsən, dayandı, yara ağır deyildi. Yenə təkrar öz paltarı ilə də bir az sarıdım. Cavan oğlan idi, polyak deyildi. Belə insanları rus ordularında görmək olardı. Və əli ilə mənim kəndə qaçmağıma işarə etdi. Özü isə çayın yuxarı tərəfinə – kolluq olan yerə çəkilərək gizlənməyə çalışdı. Çox təkid etdim, mənimlə getmədi. Mən kəndə tərəf qaçmaq istəyirdim, amma onu qoyub gedə bilmirdim. Yaxşı ki, məni görən yox idi. Buralarda olan almanlar da kənddən çıxmaq üzrə idi. Sahil tərəfə gələn yox idi. Onlara işləmiş bir neçə kənd satqını da hay-küydə idi.

Qız danışdıqca hərdən zala baxır və elə bil danışığı ilə canlandırdığı insanın yaxınlarını zalda axtarırdı. Davam edirdi:

– Anam deyirdi ki, o adam rus ordusunda vuruşmuşdu. Yaralı və huşsuz halda əsir düşüb. İndi isə Plaszov düşərgəsindən əsirlikdən qaçırmış... Dilini başa düşməsəm də, məni məcbur kəndə göndərdi.

Əlavə etdi:

– Anam deyirdi ki, hadisə yerindən uzaqlaşmaq üçün özüm də bilmədən velosipedi axtarmağa başladım. Axır ki, əlimə çayın sahilinə gətirdiyim köhnə velosiped keçdi. Arxada sakit axan çay, seyrək payız meşəsi, qarşımda isə kəndə gedən torpaq yol idi. Qəlbim sürətlə döyünür, nəfəsim isə qısa-qısa gəlirdi. Hərəkət etmək üçün cəsarət topladım. Təkərlər torpaq yolda şütüdükcə, sürətlə pedalları basırdım. Ayaqlarım yüngülcə titrəsə də, sürət yavaş-yavaş artırdı. Qaranlıqdan qaçmaq, təhlükədən uzaqlaşmaq üçün ən yaxşı fürsət idi. Amma məni xilas edən adamın necə olacağını düşünürdüm. Çayın səsi yavaş-yavaş arxada qaldı. Təmiz havanın soyuqluğu üzümə çırpıldı. Fikirlərim dolaşıq olsa da, hər pedal basıldıqca bir addım daha irəli getmək demək idi. Amma birdən nə düşündümsə, dayandım. Yuduğum paltarı etibarlı yerdə gizlədə bildim. Orada-burada yanan lampa işıqları artıq üzümə vururdu. Amma nədənsə daxildən gələn qüvvə məni geri qaytardı. Təhlükəsiz yerə çatmağa cəmi bir neçə dəqiqəlik yol qalırdı... Amma o an

beynimdə fikirlər dolaşdı; o adamın titrəyən əlləri, qana bulaşmış paltarı və mənə baxdığı bir anlıq baxış; kənd tərəfə qaçmağıma etdiyi işarə, birdən-birə ümid verdi. Və onu qoyub gəldiyimə peşman oldum. Sükunət içində az qala nəfəsim tutula. Qolumda hələ də yaralının qan izləri vardı. Fikrimdə bir sual: "Əgər o, mənim yerimdə olsaydı nə edərdi? Qayıdardımı?" Qəti qərara gəldim ki, paltarımı dəyişmədən yaralının yanına qayıdım. Qorxulu olsa da, qayıtdım. Geri dönüb sahilə tərəf yol aldım.

Velosiped çaya doğru irəliləyirdi. Qaranlıq qatılaşır, qorxu isə dərinləşirdi. Amma bu artıq qorxu deyildi – bu, borc idi. Ona görə yox ki, adam onu xilas etmişdi. Ona görə ki, Anna öz vicdanının sorğusunda idi. Yol enişli olduğu üçün çayın sahilinə tez yetişdi və adamı axtarmağa başladı. Qaranlıq düşmüşdü. Həm də hər şey kolkos içində idi. Anna çayın sahili boyunca kolluqlar arası irəliləyirdi. Velosipedi çoxdan bir kənara atmışdı. İndi hər addımı yavaş, ehtiyatla atırdı, sanki ağaclar nəfəsini tutmuşdu. Hərdən kənd tərəfə – təhlükə gələcək tərəfə baxırdı. Almanlar görünə bilərdi. Amma bura əsas yol olmadığı üçün bir az arxayın idi. Qulaqları səs axtarırdı, başqa səs yox, nəfəs səsi... Birdən ağacların qol-budaqları arasından bir titrəyən kölgə göründü:

– Sən gəldin, niyə gəldin?

Səs zəif idi, amma tanış idi. Anna sözlərini başa düşməsə də, gəldiyinə etiraz etdiyini anladı.

Yaralı yerə tökülmüş kiçik budaqlar üstündə oturaraq ağac gövdəsinə söykənmişdi. O, təkcə yaralı deyildi,

onda konslagerin[1] buraxdığı izlər vardı. Bəlkə də aclıqdan əldən düşmüş bədəni qaçış zamanı daha da pisləşmişdi. Üzündə donmuş qan izləri, gözləri isə yarı qapalı idi. Amma Anna yaxınlaşanda dodaqlarında zəif bir təbəssüm yarandı. Anna diz çökdü, əlini onun alnına qoydu, hələ nəfəsi var idi. "Mən səni belə buraxa bilmərəm, sən məni xilas etdin, indi növbə mənimdir", – dedi.

Əllərinə güc verərək belindən yapışdı, yavaş-yavaş ayağa qaldırmağa çalışdı. Oğlan ağır idi, buraxmadı. Anna gücünü toplayaraq qaldırmaq istəyəndə nəfəsi üzünə dəydi, bədəni bir an silkələndi, isti nəfəs vurdu. Addım-addım, yavaş-yavaş hərəkət edirdilər. İrəlidə hər şey təhlükəli idi, düşmən ola bilərdi, it səsi, satqın güdməsi... Amma Anna elə bil heç nə eşitmirdi. Yalnız onun nəfəsini və öz qəlbinin döyüntüsünü hiss edirdi. Onu velosipedə çatdırmaq bir igidlik, kəndə çatdırmaq isə qismət məsələsi idi. Amma geriyə yol olmadığını da bilirdi.

Yaralını velosipedin çərçivəsinə söykədi. Əyildi, çiynini onun yaralı olmayan qolunun altına keçirtdi. Yaralının bədəni daha çox titrəməyə başladı, amma hələ dözümlü idi. Bu, hər şey demək idi. Pedalları yavaş-yavaş çevirdi. Hər təkər fırlananda, o, nəyəsə ümid edir, həm də qorxurdu: "İlahi, bizi kimsə görməsin, qan dayanmış olsun..." – fikrindən keçirdi.

Kəndə aparan yol sahildən yavaş-yavaş uzaqlaşırdı. Elə bil meşədə yerə tökülmüş sarı qırmızımtıl

[1] Konslager – konsentrasiya düşərgəsi.

yarpaqlar və ağacların qol-budaqları hər şeyi qorxulu göstərirdi. Haradasa, bəlkə də, qorxulu olanların üstünü örtdüyünü də yada salırdı. Bəzən kol-kosların qaraltısı düşmən kimi görünürdü. Hər bir səs – bir qırıq budaq, bir tikanlı keçid yerləri ürəyini silkələyirdi. Birdən qarşıdan bir fənər işığı göründü. Anna dondu, “bu, kim ola bilərdi? Təki alman nəzarətçisi olmasın” deyə fikirləşdi.

Velosiped dayandı... Yaralının başı çiyninə əyilmişdi. Təhlükəli idi. Nəfəsi çox zəif gəlirdi. Anna dodağını dişlədi: “İndi dayanmaq olmaz. Yaxşı ki, velosipedi yolun kənarındakı gövdəli ağacın arxasına verə bildi. İşıq ora ötəri düşsə də, sanki keçdi və təhlükə ötüşdü, deyəsən. Amma işıq yenidən ağac tərəfə vurmağa başladı. Anna yerində donub qaldı, yaralı da ona sığınmışdı. Ancaq bilirdi ki, ağacın arxasında görünmə ehtimalı azdır. İşıq çoxalmağa başladı və birdən çevrilərək başqa səmtləri vurmağa yönəldi. Anna rahat nəfəs aldı və yaralının vəziyyətini yoxladı – deyəsən, pis deyildi. İt səsi də gəldi və uzaqdan hürməyə başladı. Anna dərindən nəfəs aldı. Velosipedin sürətini bir az artırdı. Kolların arxasından tanış bir səs eşidildi:

– Kimdir orada?

Bu, kəndin yaşlı qadını, Halına idi. Sahə yollarını arabir yoxlayan qadın. Yaxşı adam idi.

Onun səsini tanıyan Anna cavab verdi:

–Mənəm... Anna... kömək edin, yaralı var...